# Bu gün Azərbaycan regionun güclü dövləti kimi tanınır



## 2020-ci il ölkəmizin siyasi, iqtisadi və hərbi qüdrətini bütün dünyaya nümayiş etdirdi

**Artıq tarixə qovuşan 2020-ci ildə dünya koronavirus pandemiyası ilə üzləşdi. Bu bəlaya qarşı ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edən Azərbaycanın qlobal müstəvidə fəal rolu diqqət çəkdi. Ölkə rəhbərliyinin gördüyü tədbirlər respublikamızda yeni növ virusun törətdiyi xəstəliyə qarşı mübarizəni ən yüksək səviyyədə təşkil etməyə, eyni zamanda, iqtisadi böhranın qarşısını almağa, iqtisadi sabitliyi qoruyub saxlamağa imkan yaratdı.**

Yeri gəlmişkən, Azərbaycanda COVID-19-la müalicənin səmərəsini gücləndirmək üçün qısa zaman ərzində laboratoriyaların sayı 8 dəfə artırıldı, 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikildi. Bunun sayəsində virusa yoluxan xəstələr üçün 10 mindən çox çarpayı yeri yaradıldı.

Paralel olaraq həkim çatışmazlığının qarşısının alınması istiqamətində mühüm işlər görüldü. Bəzi ölkələrlə bu sahədə əməkdaşlıq üçün operativ danışıqlar aparıldı, 5 ölkədən – İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimlər dəvət edildi ki, bu da xəstələrin müalicə olunaraq sağalmasında müstəsna rol oynadı.

Hazırda da qlobal böhranın ölkəmizdə daha az hiss olunması məqsədilə bütün istiqamətlərdə lazımi qabaqlayıcı tədbirlər davam etdirilir. Karantin dövrü ərzində vətəndaşlara göstərilən maddi və sosial yardımlar bu xüsusda əhəmiyyətli rol oynayır. Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən böyük dəstək göstərilir.

Ötən il taleyüklü bir hadisə isə tarixə qızıl hərflərlə yazıldı. Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu genişmiqyaslı təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək, bu barədə məlumat verdi. Döyüşlərin ilk günü Murovdağ və Ağdərə istiqamətlərində strateji yüksəkliklər və bir sıra kəndlər işğaldan azad olundu. Ümumiyyətlə, Vətən müharibəsinin 44 günü ərzində – sentyabrın 27-dən noyabrın 9-dək rəşadətli Azərbaycan Ordusu 5 şəhəri, 4 qəsəbəni və 286 kəndi erməni işğalçılarından təmizlədi.

Bu müharibədə Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyəcəyini, iflasa məhkum olacağını anlayan düşmən məğlubiyyətini etiraf etmək məcburiyyətində qaldı, noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən üçtərəfli bəyanat imzalandı. Bununla da 30 ildən artıq davam edən münaqişəyə, torpaqlarımızın işğalına son qoyuldu, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatı şərtləndirildi. Bəyanatın müddəalarına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması elan edildi. Ötən il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələ-mərhələ Azərbaycan Respublikasına qaytarıldı.

Keçən il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində parlaq qələbəyə həsr olunan Zəfər paradı keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan paradda iştirak etdilər.

Qələbəyə gedən yol heç də asan olmadı. Son 25 il ərzində qalibiyyətin beynəlxalq hüquqi normativ bazasının formalaşdırılması, informasiya blokadasının yarılması, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, ordu quruculuğunda həyata keçirilən islahatlar, qəhrəman zabit və əsgərlərimizin şücaəti, döyüş ruhu və hərbi-vətənpərvərlik hissi, ən əsası isə Ali Baş Komandanın qətiyyəti bu parlaq, möhtəşəm uğuru şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət və dərin iqtisadi islahatlar nəticəsində uzun illər ərzində yaradılan iqtisadi potensial Vətən müharibəsində müzəffər ordumuzun düşmən qüvvələri üzərində parlaq qələbəsinə və COVID-19 pandemiyasının neqativ təsirlərinin minimallaşdırılmasına imkan verdi.

### 2020-ci ilin iqtisadi uğurlarını şərtləndirən amillər

Ötən il respublikada pandemiyaya və xarici mühitin kəskin pisləşməsinə qarşı görülən tədbirlər nəticəsində makroiqtisadi sabitlik təmin edilib, o cümlədən, qiymətlərin sabitliyi və valyuta bazarında tarazlıq qorunub. COVID-19-un təsirlərinin gücləndiyi bir şəraitdə iqtisadiyyata dəstək layihələri həyata keçirilib. Bununla da iqtisadiyyatın kəskin enişinin qarşısı alınıb. Ümumiyyətlə, 2020-ci il ərzində:

–pandemiyanın və neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, tədiyə balansı qorunub saxlanılıb. ÜDM-in həcmində cəmi 0,7 faiz kəsir olub. Ölkənin strateji valyuta ehtiyatları 50 milyard ABŞ dolları təşkil etməklə sabit qalıb və ümumi daxili məhsulun həcmini üstələyib;

–bazar tələbatının tam ödənilməsi, bazarla bağlı şəffaf kommunikasiyanın təmin olunması inflyasiyanı aşağı salmağa imkan verib. Təbii ki, inflyasiyanın aşağı salınmasında uçot dərəcəsinin endirilməsi də öz müsbət təsirini göstərib;

–investisiya qoyuluşlarının təmin edilməsi diqqətdə saxlanılıb. Dövlət sektorunda investisiya qoyuluşları cari ildə 4 faiz azalsa da, özəl sektorda 8 faiz artıb.

Bütün bunlarla bərabər, 2020-ci ilin dövlət büdcəsinin gəlirlərində neft sektorunun payı 58 faiz, qeyri-neft sektorunun payı isə 42 faiz təşkil edib. On il əvvəl büdcədə qeyri-neft sektorunun payı cəmi 26 faiz olduğu halda, hazırda bu rəqəm 46 faizə qədər artıb. Keçən ilin yanvar-noyabr aylarında vergilər üzrə 6,8 milyard manat vəsaitin dövlət büdcəsinə daxil olunması reallaşdırılıb. Qeyri-neft sektorunda çalışan işçilərin əməkhaqqının vergi sisteminə daxil olunması sayəsində bu sektor üzrə daxilolmalar artıb. Bu isə ölkədə "kölgə iqtisadiyyatı"nın həcminin azalmasına gətirib çıxarıb. Cari ilin yanvar-noyabr aylarında Azərbaycandan 2936 çeşiddə məhsul ixrac olunub. On bir ayda respublikada ixrac əməliyyatlarının dəyəri 13 milyard 60,5 milyon ABŞ dolları təşkil edib.

### Ölkənin maliyyə vəziyyəti nəzarətdə saxlanılır

Cari il ərzində Mərkəzi Bankın valyuta ehtiyatları 3 faizdən çox artıb. Bu, bazarda valyuta çatışmazlığı probleminin olmaması deməkdir. Bundan başqa:

–2020-ci il dekabrın 1-nə bank sektorunun kredit qoyuluşları 14 milyard 304,7 milyon manat təşkil edib;

–əhalinin banklardakı əmanətlərinin dəyəri 7 milyard 908,2 milyon manat olub, son bir ayda isə 37,9 milyon manat artıb;

–2018-ci ildən bəri pul təklifi 50 faiz artıb. Yeni kreditlər üzrə faiz dərəcəsi 5,5 faiz aşağı düşüb. Ölkədə kifayət qədər maliyyə imkanları yaradılıb. Bu da büdcə kəsiri ilə bağlı qarşıya çıxan məsələlərin həllini şərtləndirib.

### Azərbaycanın aqrar sektorunun gəlirləri son 7 ildə iki dəfədən çox artıb

Son illər kənd təsərrüfatında mühüm dəyişikliklər baş verib, ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli addımlar atılıb, Elektron Kənd Təsərrüfatı Proqramı gerçəkləşdirilib, fermerlərə subsidiyaların verilmə mexanizmi təkmilləşdirilib, ixrac bazarı genişləndirilib.

Dövlət başçısının ötən il aprelin 14-də imzaladığı "Koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatının yaxşılaşdırılması üçün vəsait ayrılması haqqında" sərəncamına əsasən isə Prezidentin ehtiyat fondundan Aqrar Kredit və İnkişaf Agentliyinə 30 milyon manat məbləğində vəsait ayrılıb. Bu, fermerlərə əlavə bir dəstək, əkin dövründə fermerlərin mikrokreditlərə tələbatının ödənilməsi deməkdir.

Adı çəkilən sərəncamın mühüm əhəmiyyəti həm də onunla bağlıdır ki, indiyədək fermerlər kredit üçün banklara müraciət edəndə banklar tərəfindən əksər hallarda onlardan kredit müqabilində Bakıda mənzil girovu tələb olunurdu. Prezidentin imzaladığı sərəncam isə fermerlərin kredit almaq imkanlarını asanlaşdırıb. Yəni bu sərəncamla fermerlərə girov tələb etmədən mikrokreditlər verilməsinə başlanılıb.

Bütün bu və ya digər tədbirlərin reallaşdırılmasının nəticəsidir ki, keçən il dekabr ayının 1-dək dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahələrindən 98,7 faizi, yaxud 955,2 min hektarı biçilib və həmin sahələrdən 2 milyon 931,2 min ton məhsul götürülüb. Orta hesabla hər hektardan 30,7 sentner məhsul toplanıb.

Bundan əlavə, 33,6 min hektar qarğıdalı sahəsindən 290,7 min ton məhsul yığılıb, hər hektardan orta hesabla 86,4 sentner qarğıdalı dəni götürülüb. Qarğıdalı dəni nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3 milyon 221,9 min ton olub.

### Beynəlxalq reytinq təşkilatları Azərbaycan haqqında

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək artımın təmin edilməsi, ixrac imkanlarının genişləndirilməsi, rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması, investisiyaların təşviqi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan genişmiqyaslı islahatlar kursu beynəlxalq aləmdə də olduqca yüksək qiymətləndirilir.

Azərbaycanda iqtisadi və sosial sahədə aparılan ardıcıl, sistemli islahatlar qısa müddət ərzində ölkənin iqtisadi imkanlarının xeyli dərəcədə genişləndirilməsinə, uğurlu sosial dövlət modelinin qurulmasına imkan yaradıb. Bu günlərdə "Doing Business" hesabatında müəyyən edilən indikatorlar üzrə Azərbaycanın mövqelərinin əhəmiyyətli dərəcədə yüksəlməsi və 190 ölkə arasında qabaqcıl yerlərdə qərarlaşması bu islahatların kifayət qədər düşünülmüş strategiyaya əsaslandığının daha bir sübutu kimi qiymətləndirilə bilər.

Dünya Bankının daxili auditi tərəfindən aparılmış müstəqil araşdırmanın nəticəsinə əsasən, Azərbaycanın "Doing Business 2020" hesabatında mövqeyi 6 pillə yaxşılaşıb və ölkəmiz bir daha dünyanın 10 ən islahatçı ölkəsi sırasına daxil olub.

ABŞ-ın kifayət qədər nüfuzlu "İrs" Fondunun 2020-ci ili mart ayında təqdim etdiyi dünyanın 180 ölkəsi üzrə iqtisadi azadlıq indeksində Azərbaycan mövqeyini 16 pillə yaxşılaşdıraraq 44-cü yerə sahib olub. Azərbaycan dünyada iqtisadi azadlıq indeksini ən çox təkmilləşdirən 11 ölkə sırasındadır. Azərbaycan bu uğuru, ilk növbədə, biznes azadlığı, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə əldə etdiyi nailiyyətlərə görə qazanıb.

Onu da xüsusi olaraq qeyd edək ki, Azərbaycan iqtisadi azadlıq indeksinə görə, hətta Avropanın Polşa, Portuqaliya, İspaniya, Fransa və Belçika kimi ölkələrini belə arxada qoyaraq, köhnə qitənin 45 ölkəsi arasında 24-cü yerdə qərarlaşıb.

Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizləri qlobal əhəmiyyətli layihələrdə fəal iştirak etməklə Avrasiyanın mühüm və etibarlı nəqliyyat-logistika mərkəzlərindən biri kimi özünü təsdiq edib. Dünya İqtisadi Forumunun dərc etdiyi "Qlobal Rəqabətlilik İndeksi"nə görə Azərbaycan dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 141 ölkə arasında 11-ci, hava nəqliyyatı xidmətləri üzrə 12-ci, dəniz limanı xidmətləri üzrə 25-ci, yol infrastrukturunun keyfiyyətinə görə isə 27-ci yerdə qərarlaşıb.

Ölkənin enerji resurslarının səmərəli istifadəsi, iqtisadi azadlıqların təmin olunması, "kölgə iqtisadiyyatı" ilə mübarizə və digər sahələrdə əldə olunan uğurlar makroiqtisadi göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına imkan yaradıb. Azərbaycan artıq iqtisadi baxımdan regionun ən güclü dövləti kimi bütün dünya tərəfindən qəbul olunub.

*V.BAYRAMOV,*
*"Xalq qəzeti"*